## TURAL ADIŞİRİN

*1990-cı ildə ŞƏKİnin Oxud kəndində doğulub. Şeirləri DGTYB-nin "Bölgələrdən səslər", "Səs. Söz. Rəng" toplularında, nüfuzlu dərgilərdə çap edilib. DGTYB-nin Dənətim Kurulunun üzvüdür.*

### *QAYITSAN*

Dalınca qaçdığım, Günəş bildiyim,
sonu yox həsrətin iziymiş demə.
Mən alov bildiyim, ataş bildiyim,
ürəyin dağların buzuymuş demə.

Qayıt ürəyimə yerin boş qalıb,
donmuş duyğuların bəlkə qızındı.
Məhəbbətim sənin, taleyim sənin,
qayğılarım isə özgə qızındı...

Bu yerin cazibə qanunu deyil,
qayıtsan pozula, dünya dağıla...
Qayıt, o qızı da qurtar əzabdan,
Qayıt, bu dəlini gətir ağıla...

Bir dəfə nəyisə bacar həyatda,
çıx mənim adıma sınan vüqarı...
Gəl, doğma ocağa ərisin, gülüm,
qəlbini soyudan inadın qarı...

...
Görüş yerimizdə sənin ilə yox,
indi görüşürəm ümidlərimlə...

### *TƏBİƏT*

Baharda dünyanın toyu başlanar,
bir yaşıl sevgiylə gələr təbiət.

Hər çəmən bir təzə gözəllik gəzər,
nurunu çöllərə ələr təbiət.

Bulağa gedərəm qızlar söz eylər,
yamaclar arxamca baxıb göz eylər;
Yaşmaqlı gəlinə dönər quzeylər,
büllur bulaqlarda gülər təbiət...

Keçərəm dağların göy yaxasından,
gözlərim mürgülər gül qoxusundan;
Qayalar ayılar qış yuxusundan,
yolları çiçəyə bələr təbiət...

Əriyər zirvədə şimşək qorxusu,
gül açar ellərin qönçə arzusu;
Bir gül qoparmağa qorxdum doğrusu,
mən elə bildim ki, bilər təbiət...

## *NƏ GÖZƏLMİŞ*

Zil qara kipriklərin
davası nə gözəlmiş.
Sevginin yaz ətirli,
havası nə gözəlmiş.

Həsrətdən alışmağın,
küsməyin,barışmağın,
Vüsala qovuşmağın,
səfası nə gözəlmiş.

Dərdindən öldüyümün,
əhdinə güldüyümün,
Vəfasız bildiyimin,
vəfası nə gözəlmiş.

Qoy bu yolda közərim,
öz istimdi, öz əlim…
Könül sevən gözəlin,
cəfası nə gözəlmiş.

## *VAR*

Üzümü yaxşıya tərəf tuturam,
Yüz pisin içində bir yaxşı ki var.
Mən niyə bürküdə yaxa yırtıram,
Arandan yuxarı dağ başı ki var.

Demə, həyat qısa, demə ömür kəm,
ürəyin oduyla ömrü ölçürəm…
Gözümün işığı qurtarıb, nə qəm,
dünyanı əks edən göz yaşı ki var…

Kim deyir, diləklər bir yolluq sönür..?
ulduzlu gecələr parlaq görünür;
Nə olsun ömür-gün qüruba dönür,
min-min diləklərin şabaşı ki var.

Var soyuq həyatda isti bucaqlar,
var əbədi yanan odlar-ocaqlar…
Nə olsun ki, məni unudacaqlar,
bu qoca dünyanın yaddaşı ki var..!